# "GÖY ÜZÜNDƏ SƏS"İN ŞAİRİ



**Şəddat CƏFƏROV**

*"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü*

Elə sənətkarlar var ki, az sözlə böyük mənalar yaradırlar. Əlbəttə, sözdə məna dərinləşdikcə onun cazibəsi də artır. Görkəmli sənətkarların çox yazanları da, az yazanları da əsərlərinin kəmiyyəti ilə yox, əlbəttə, keyfiyyəti ilə yaddaşlarda yer alır. Düşüncədə qazandıqları yerlə sevilir, uca tutulur, sözlərinə dəyər verilir.

Azərbaycan ədəbiyyatının Şahmar Əkbərzadə, Akif Səməd, Məmməd Dəmirçioğlu, Rəfael İncəyurd, Məmməd İlqar kimi bir sıra şairlərinin adlarını çəkmək olar ki, onlar az qism şeirləri ilə tanınıb, əgər belə demək mümkünsə, bir-iki kiçik həcmli kitabları ilə şairliklərini təsdiq ediblər. Xalqımızın böyük poeziya ənənələri var. Sabir, Səməd Vurğun, Rəsul Rza, Şəhriyar ənənələri artıq unudulmayacaq poeziya məktəblərinə çevrilib. Bu məktəblərin ən üstün cəhətlərini mənimsəyən Bəxtiyar Vahabzadə, Məmməd Araz kimi sənətkarlarımız dəyərli poeziya inciləri yaratdılar. Son illər ciddi yaradıcılıq əlaqələrimizlə ünsiyyət bağladığım sənətkarlardan biri də Avdı Qoşqardır. Onun haqqında yazılmış iki kitabı mənim rəhbərliyim altında Bakı 3 saylı mətbəəsində çap olunub. Kitabların müəllifi dostum, şair-publisist Əli Rza Xələflidir.

*"Ruhun daşqını"* kitabı haqqında danışmışam. Amma indi Avdı Qoşarın yaradıcılığını dərin ədəbi təhlillərlə ehtiva edən *"Göy üzündə səs"* (2018) kitabı haqqında söz açmaq istərdim.

Bizə nəşr üçün təqdim olunan kitabları əvvəlcə diqqətlə nəzərdən keçirirəm. Sonra ilkin nəşriyyat rəyi olaraq annotasiya hazırlayıram. Hər bir annotasiya oxucuya ünvanlanmış qısa yol qeydini xatırladır. Bu qeydlər kitabın bəzi məziyyətləri haqqında ilkin məlumat mənbəyi olur. *"Göy üzündə səs"* kitabına yazdığım annotasiyanı oxuculara bəri başdan çatdırmaq istərdim: *"Şair-publisist Əli Rza Xələflinin oxuculara təqdim etdiyi "Göy üzündə səs" kitabı şair Avdı Qoşqarın 60 illik yubileyi ərəfəsində onun həyat və yaradıcılığı haqqında ədəbi hesabatdır. Kitabda sənətkarın ədəbi taleyindən geniş bəhs edilir, müasirlərinin onun haqqında ədəbi düşüncələrinə yer ayrılır. Kitabın sonuncu bölməsində oxucular Avdı Qoşqarın şeirləri ilə də tanış ola bilərlər.Düşünmək olar ki, "Göy üzündə səs" kitabı Avdı Qoşqarın şair obrazını dolğunluğu ilə əhatə edə bilib".* Bəli, həqiqətən də belədir. *"Göy üzündə səs"* kitabına toplanmış yazılar Avdı Qoşqar yaradıcılığınıdolğunluğu ilə əks etdirdiyi kimi, həm də mütəxəssis ədəbiyyatşünasların, görkəmli söz adamlarının Avdı Qoşqar yaradıcılığına münasibətinin aynası təsirini bağışlayır.

Mən kitabdakı yazıları nəzərdən keçirdikcə Əli Rza Xələflinin Avdı Qoşqar yaradıcılığına dərindən bələdliyini müşahidə etdim. Çünki hər hansı bir ədəbiyyatşünas, tənqidçi, ya publisist haqqında yazmaq istədiyi sənətkarın yaradıcılığını əvvəlcə yaxşı-yaxşı öyrənməli olur. Bir növ sənətkarı özünün ruhunda yenidən yaradır, onun obrazını söz donunda təsəvvüründə canlandırır. Zənnimcə, Əli Rza Xələfli də yaxşı tanıdığı Avdı Qoşqarı təkcə şəxsiyyət baxımından yox, həm də sənətkar kimi öyrənib.

Avdı Qoşqarın yaradıcılığına həsr olunmuş *"Göy üzündə səs"* kitabını, şübhəsiz, çoxları oxuyub. Hələlik bu kitabın ən yaxın oxucularından biri kimi Elçin Mehrəliyevi görürəm. Onu da deyim ki, Elçin Mehrəliyev özü də görkəmli yazıçı və publisist olmaqdan başqa, həm də sözünün nəzəri siqləti olan ədəbiyyatşünas tənqidçidir. Əgər belə demək mümkünsə, o, sözün necə yarandığını, sənətin cəfakeş sənətkarın ruhunda necə pərvəriş tapdığını yaxşı bilir. Bu mənada, Elçin Mehrəliyev *"Göy üzündə səs"* kitabını necə yüksək dəyərləndirir - bunu nüfuzlu sözün verdiyi dəyər kimi qəbul etmək ədalətli olardı.

Filologiya elmləri doktoru, yazıçı-publisist Elçin Mehrəliyev kitaba *"Redaktordan"* rubrikası ilə *"Xələflinin "Göz üzündə səs"i, yaxud ədəbi düşüncədəki Avdı Qoşqar"* adlı çox dəyərli bir *"Ön söz"* yazıb. Həmin *"Ön söz"*"ün bəzi məqamlarına diqqət etmək oxucu üçün də maraqlı olardı: *"Əli Rza Xələflinin "Göy üzündə səs"i neçənci kitabıdır deyə bilmərəm, amma onu deyə bilərəm ki, bu kitab günümüzün tanınmış və istedadlı şairi, bu yaxınlarda 60 illik yubileyini qeyd etmiş Avdı Qoşqarın həyat və yaradıcılıq yolundan bəhs edən ilk kitabdır. Ola bilsin ki, gələcəkdə Avdı Qoşqarın yaradıcılığı istər janr, istərsə də mənəvi hərəkət istiqamətinə görə öyrəniləcək, təhlil olunacaq... ancaq sənətkarın haqqında ilk düşüncə örnəyi kimi Ə.R.Xələflinin "Göy üzündə səs"i həmişə xatırlanacaq, müxtəlif tərəflərdən dəyərləndiriləcək".* *"Ön söz"*ün girişindən gətirdiyimiz cümlələr həm də müəyyən informasiya yükü daşıyır. Bu qeydlərdən öyrənirik ki, *"Göy üzündə səs"* kitabı təsadüfi yazılmayıb. Şair Avdı Qoşqarın 60 illik yubileyinə hədiyyə olaraq yazılıb. Əlbəttə, hər bir sənətkarın həyatında 60 illik müəyyən mərhələyə yekun mahiyyəti daşıyır. Bir növ, hər bir sənətkar özünün 60 illiyində cəmiyyətə hesabat verir. Kifayət qədər yaradıcılıq zamanını ehtiva edən yaşın 60 illik çağınacan hansı işlər görülüb, el içində deyildiyi kimi, papağını günə havayı yandırmayıb ki.

Əlbəttə, Avdı Qoşqarın yaradıcılığı mütəmadi olaraq *"Azərbaycan"*, *"Ulduz"* jurnallarında, *"Ədəbiyyat"* və *"Kredo"* qəzetlərində çap olunur. Oxucular onu narahat, çılğın ruhlu bir şair kimi tanıyırlar. Əsas odur ki, *"Göy üzündə səs"* kitabı da Avdı Qoşqarı belecə, olduğu kimi oxuculara təqdim edir. Yəni yaradıcılığına necədirsə, həyatda da onu söz üzərində yanan bir sənətkar kimi göstərə bilib.

Elçin Mehrəliyev sözünə davam edərək yazır: *"Ə.R.Xələfli ilə Avdı Qoşqar arasında az qala bir qərinədən çox zamanı ehtiva edən yaradıcılıq əlaqələri var. Şübhəsiz, bu əlaqələr çoxdan qırılmaz dostluğa çevrilib. Onlar bir-birini yaxşı tanıyır, bir az qədimyana desək, bir-birinin cikinə-bikinə bələddirlər. Deməli, Əli Rza Xələflinin Avdı Qoşqarın həyat və yaradıcılıq fraqmentlərindən bəhs edən "Göy üzündə səs"inin yazılması üçün tam təbii əsas olub. Müəllif araya-ərsəyə gətirdiyi kitabında ədəbi düşüncədəki Avdı Qoşqarı kifayət qədər dolğun təqdim edə bilib. Bunun üçün o, təkcə öz yazılarına yox, müasirlərinin də Avdı Qoşqar haqqında qeydlərinə yer ayırır. Hələ üstəlik Avdı Qoşqarın şeirlərini də kitabdan əsirgəmir".* Hər bir sənətkarın öz dövrünün ədəbi düşüncəsində yeri olur. Avdı Qoşqar da bu sıradan istisna deyil. Çünki onun odlu-alovlu şeirləri kütləvi oxucunu səfərbər etdiyi kimi, söz sərraflarının da nəzər-diqqətini özünə cəlb edir. Çünki Avdı Qoşqarın poetik yaradıcılığı cəmiyyətin özünün səsi kimi doğulur.

Milli ruhu , vətən düşüncəsi mənəviyyatında yaddaşa çevrilmiş sənətkarlar elə əslində xalqın bir parçasıdır. Xalqın varlığının səsini öz sözündə əks etdirən güc mənbəyidir. Avdı Qoşqar da poetik yaradıcılığında xalqın ruhundan qopan ağrı-acıların göy üzündəki səsini özünün poetik dalğaları ilə ustalıqla tutur. Elçin Mehrəliyev doğru deyir ki, *"zənnimcə, kitabın adı - "Göy üzündə səs"-də təsadüfi deyil".* Axı Avdı Qoşqar təbiət etibarı ilə minacat şairidir. Yəni, tanrıya, Allaha, gözəgörünməz qüvvələrə, təbiətə istinadən şeirlərini yazır. Bu mistik, yaxud real qüvvələr onun yaradıcılığında xitaba çevrilir.

Avdı Qoşqarın real və qeyri-real obrazlara müraciətləri həmişə təbii səslənir. Sanki şair vətəninin, xalqının və bir çox hallarda, ümumiyyətlə, bəşər nəslinin böyük problemlər qarşısında gücsüzlüyünü görür, ona görə də real və qeyri-real güc mənbələrindən kömək diləyir. Bu yerdə Elçin Mehrəliyevin kitabdakı real məqamlara əsaslanan düşüncələrinə istinad etmək daha doğru olardı: *"Avdı Qoşqarın poeziyasına bir ruhsallıq hakimdir. Sanki bu şeirlərin müəllif tərəfindən yazılmağını yox, fikrin dərinliklərindən süzülüb gələn nəğmələr kimi oxunmağını düşünmək olar. Nəğmə isə dalğa-dalğa mühitə yayılır, insanların ruhuna hopur və demək, həm də göy üzünə qalxır. Hər halda, Əli Rza Xələfli Avdı Qoşqarın poeziyasına bələdliklə, inamla deyir ki, bu şeirləri göy üzündə səs kimi dinləyirik. Hər halda, şairin ruhunu özündə ehtiva edən şeirlər onun daxilindəki gur işığı söz və səs donunda bizə çatdırır. Və Xələfli doğru deyir ki, "Poeziya şairin varlığında yanan ocağın təkcə odu, közü deyil, həm də işığıdır. Elə işığı olduğuna görə onu kimsədən gizləyə bilmək gücündə deyil şair". Kitabın birinci bölməsi "Avdı Qoşqar həqiqəti" adlanır. Müəllif şairin həyatını və yaradıcılığını vəhdətdə qəbul edib, onun daha qabarıq görünə bilən tərəflərinə fikir işığı salır. Və bu işıqda biz Avdı Qoşqarı Vidadi-Vaqif, Səməd Vurğun-Hüseyn Arif yolunun davamçısı... kimi nə qədər görürüksə, bir o qədər də onun ruhunda müasir dünya poetik irsinin nəfəsini hiss edirik".* Göründüyü kimi, müəllif öz yazısında Avdı Qoşqarın klassikaya bağlılıq ənənələrinə də diqqət yetirir. Zənnimcə, Elçin Mehrəliyev klassik sənətkarların adlarını yerində işlədir. Yəni, görkəmli klassiklərin ad sırası həmin axarla gəlib Avdı Qoşqara çatır.

Avdı Qoşqar bir sənətkar kimi kifayət qədər mükəmməldir. Onun müəyyən fikir ifadə edən şeirləri hər hansı bir düşüncəni şimşək kimi işıqlandırır. Şimşək çaxarkən buludlar arasında öz izini buraxdığı kimi Avdı Qoşqarın da şeirləri düşüncədə iz salır. Uzun müddət yaddan çıxmır. Bu da onun təbii istedadı ilə bağlıdır. Elçin Mehrəliyev bu məqamı da dəqiq tuta bilmişdir: *"Xələfli Avdı Qoşqarı vergili şair adlandırır və bunu "Yerlə göyün arasında" adlı ədəbi qeydlərində əsaslandırmağa çalışır. Həqiqətən Avdı Qoşqarın şeirlərində nəfəs bütövlüyü var; ilk misra ilə son misranın arasında məsafə çox qısadır".* Əgər Avdı Qoşqar həqiqətən ədəbiyyata təbii istedadı ilə gəlməsəydi, heç Xələfli də onun haqqında onun alovlu poeziyasının ahəngini tutan yanğı ilə özünün "Göy üzündə səs"ini yarada bilməzdi.

Avdı Qoşqar yaradıcılığının xalq ruhundan gəldiyini vaxtı ilə hələ gənclik illərində onu duyan, görən, tanıyan görkəmli sənətkarlar, söz sahibləri düzgün qavramış və bunu cəmiyyətə açıq bildirməkdən də çəkinməmişdilər. Elçin Mehrəliyev məhz Avdı Qoşqarın hələ ilk şeirlərindəncə şairliyi etiraf olunan sənətkarlar sırasında olduğunu göstərir: *"Bir vaxt Məmməd Araz, Asif Əfəndiyev (Asif Ata), Teymur Bünyadov kimi XX əsrin klassikləri Avdı Qoşqarın poeziyaya gəlişini və həmişəlik gəlişini onun ilk şeirlərindəcə duymuşdular, bu barədə fikirlərini də açıq və inamla bildirmişdilər. Sözdə nüfuz sahibi olan sənət adamlarının inamlı və aydın münasibətləri də o vaxt qapıları taybatay aça bilmir. Ona görə də Avdı Qoşqarın ilk kitabı ötür-ötürlə 1989-cu ilə gəlib çatır. Həmin kitabla bağlı Xələfli ayrıca bir yazını qələmə alır. Yazının ehtiva etdiyi məna və mahiyyətə görə müəllif qeydlərini "Sarayın bünövrə daşı" adlandırır. "Gördüyüm dünyanın ağrısı...", "Ruhun daşqını", "Üzü küləyə nəğmələr", "Ürək-ürək insan gəzmək", "Yaşın Domokl qılıncı" kimi ayrı-ayrı yazılarında Əli Rza Xələfli sənətkarın portretinin müxətlif tərəflərinə nüfuz edir, görünməli məqamların rənglərini tünd çəkir. Bu yazılar bir-birindən təcrid olunmayıb, biri digərinin davamı kimi oxunur. Ona görə də son nəticədə oxucu üçün bütöv Avdı Qoşqar portreti yaranmış olur".* Görkəmli ədəbiyyatşünas kitaba yazdığı *"Ön söz"*ündə 80-ci illərində böyük ədəbiyyat adamları kimi tanınan şəxsiyyətlərin adlarını Avdı Qoşqarın kimliyini məqamında bilən dəyər sahibləri kimi göstərir. Və, əlbəttə, kitabda yer almış məqalələrin adlarını da diqqətə çəkir. Hər bir məqalənin adında əslində Avdı Qoşqarın nəbzinin ahəngi döyünür. Məqalələrin adları Avdı Qoşqar təbiətinin ruhsallığına işıq salır.

Əli Rza Xələflinin kitabın üz qabığında Avdı Qoşqara həsr olunmuş çox duyğulu, kiçik həcmli bir essesi də var. İstərdim ki, bu essedə ifadə olunan sağlam insani duyğular söz qədri bilən oxucuların da varlığına yol tapsın:

*"Poeziya yanan dərddir... şair isə dərd çəkən; yanan yanğıları, dərdləri varlığına çəkənin özü də dərd deyilmi?*

*Hər dərdin də öz dili var. Gərək hər dərdin öz səmtini biləsən; dərdin dilini bilməyənin sözü yarı yolda qalar.*

*Həmişə şairləri od qarışıq bir varlıq kimi düşünmüşəm; öz içində közərən, yanan bir varlıq kimi.*

*Mənə elə gəlib ki, şairdə sözündən qabaq özünü tanıdan bir cazibə var. Dərd gəzdirəni aralıdan çəkir bu cazibə: bəri gəl, mən dərd bilənəm, - deyir.*

**(Davamı 11-ci səhifədə)**

# "Göy üzündə səs"in şairi

*(Əvvəli 10-cu səhifədə)*

*Avdı Qoşqarı ilk gördüyüm gündən onun təbiətini duymuşam. Görmüşəm ki, ilan gülləyə uçan kimi necə oda, közə can atır. Bəlkə də, elə ona görə də yazıları odda yanmanın əzablarından doğulur. Təkcə ayrı-ayrı şeirləri yox, misra-misra duyğuları da yanmanın, göynəmənin sözə çevrilişi, sözlə ifadəsidir.*

*A.Qoşqar 60-ı tamam elədi. Mən 65-i qurtarıram. Beş ilin fərqi də az deyil. Hər halda, böyük kiçiyi br az yaxşı tanıyar.*

*"Göy üzündə səs"lə bölüşdük dərdimizi. Bir kitablıq sözlə, hərəmiz öz adımızla, öz səsimizlə çağırdıq bizi biləni...*

*... Bəri gəl, mən dərd bilənəm!..".*

Mən bu qeydlərimdə Azərbaycan ədəbiyyatının 3 tanınmış yazarını - Elçin Mehrəliyevi, Avdı Qoşqarı və Əli Rza Xələflini bir araya gətirmək istədim.

Düşünürəm ki, onların simasında ədəbiyyatımızın yolu işıqlı insanların dünyasından keçir.

İşıq olan yerdə qaranlıq sakin olmaz.

* * *

"*Göy üzündə səs*" kitabını vərəqlədikcə müəllifin qanadlı duyğularının sözdən necə təzahür etdiyini müşahidə etmək hər bir oxucuda fərəh hissi doğrurur. Söz insanın ruhuna sirayət etdikcə, onun qəlbinə həyat eşqi, varlığına xoş ovqat bəxş edir. Doğrudur, sözün ruhunu tutmaq, xüsusilə, şairin düşüncələrinə yaxın olmaq, onun istəklərini, varlığından keçən hissləri anlamaq həmişə asan olmur. Ancaq hər bir sənətkar birinci növbədə sənəti baxımından ona doğma olanı daha yaxşı duyur. Zənnimcə, Əli Rza Xələflinin Avdı Qoşqarı dərindən duyması, onun sözünü, poeziyasını öz varlığından keçirərək təhlilə çəkməsi göstərir ki, o, şair həmkarını sadəcə oxucu kimi qavramır, onu bütün kimliyi ilə tanıyır, əqidəsinə, idealına yaxından bələddir. Görünür, elə bu səbəbdən də Əli Rza Xələflinin Avdı Qoşqar haqqında məqalələri müəllif hisslərini və həyəcanlarını özündə ehtiva edə bilib.

Əli Rza Xələflinin "*Göy üzündə səs*" kitabına toplanmış yazılar poetik əhvalı ilə oxucunun diqqətini özünə çəkir. Başlıqlar, mövzular dəyişsə də, yazılar oxucu diqqətini özündə saxlayır. Bunu ədəbiyyatşünas alim, yazıçı Elçin Mehrəliyev də hiss edir. Kitaba yazdığı "*Ön söz*"də hər bir məqalənin adını çəkir. Yazıların mahiyyətinə işıq salmağa çalışır. Və hiss olunur ki, o da Avdı Qoşqar haqqında yazılmış məqalələri heyranlıqla oxuyur. "*Sarayın bünövrə daşı*", "*Ürək-ürək insan gəzmək*" və digər yazıların təhlilinə həsr olunmuş məqamlar göstərir ki, Əli Rza Xələflinin ədəbi tənqidinin poetik ruhu görkəmli ədəbiyyatşünas alimi, yazıçını da məftun edir. Elçin Mehrəliyev yazır: *"Əli Rza Xələflinin bu yazıları sırasında "Üzü küləyə nəğmələr" deyərdim ki, xüsusi yer tutur. Bu qeydlərdə o, Avdı Qoşqarın öz dostu Sabir Adilin ölümünə həsr etdiyi elegiyalar silsiləsindən danışır. Şeirlərdə Avdı Qoşqar Sabir Adilin portretini necə yaradırsa, "Göy üzündə səs"in müəllifi də öz ədəbi qəhrəmanının əzab dolu yaşantılarını həmin həssaslıqla yazıya gətirir. Burada yerinə düşür ki, qeyd edək, Əli Rza Xələfli özü də şairdir. Ədəbi publisistikasında fikirlərinin ifadəsi zamanı onun üçün daralmış görünən psixoloji mühitdən özünü ifadə imkanı verən poetik lövhələr yaratmaqla çıxır. Təsadüfi deyil ki, onun "Göy üzündə səs" kitabında Avdı Qoşqar şəxsiyyətinə və yaradıcılığına həssaslıqla yanaşmanın təzahürü kimi qələmə aldığı şeirləri də görə bilərik"*. Elçin Mehrəliyevin göstərdiyi kimi poetik ruhlu tənqidçi Əli Rza Xələfli Avdı Qoşqarın yaradıcılığının poetik gücünü göstərmək üçün yeri gəldikcə onun mənəvi mühitimizi silkələyən şeirlərindən nümunələr də təqdim edir və bir çox hallarda həmin şeirlərə münasibəti sanki açar sözlərlə şifrələyərək oxucunun öz ixtiyarına buraxır.

Hər bir şair yaşadığı dövrün müəllifidir, baxmayaraq ki, yaradılmış sənət örnəyi həqiqətən insan hisslərinin mahiyyətini verə bilirsə, demek, uzaq gələcəyə hesablanıb. Şair isə öz dövrünün övladı olduğu üçün zamanına da münasibət bildirməli olur. Şair zamanına münasibət bildirirsə, onun yaradıcılığı oxucu diqqətinin mərkəzinə çəkilir. Əgər şeirdə, poeziyada reallıq özünü göstərə bilirsə, onda gələcək zamanlarda da şairin mövqeyi təqdir olunur. Xələfli Avdı Qoşqarın poetik yaradıcılığını diqqətə çəkərkən bir çox həyati məqamlara xüsusi həssaslıqla yanaşır.

Avdı Qoşqarın nəsillərin dəyişməsi fonunda dostunun oğlu ilə görüşünü maraqlı detallarla təsvir etməsi hər bir oxucuda dərin təəssürat oyadır. Ə.R.Xələfli yazır: *"Biz həyatımızın axarında gözəgəlimli görüntüləri, ruhumuzu oxşayan xatirələri yaddaşımızın gücünə güvənərək görür, oxuyuruq. Yəqin ki, aradan illər keçib. İnsan isə daş, torpaq xırdası deyil, canlı varlıqdır. Aradan ötən illər ona boy verir, görkəm verir və bəzən olan görkəm də dəyişir, əgər həyat qanunauyğun axarı ilə gedirsə, bu dəyişən görkəm dəyişən, yenilən gözəllik deməkdir. Bir vaxt dostunun oğlunu kiçik yaşlarında görüb, elə yaddaşında da belə uşaq kimi saxlayan adam üçün qarşılaşdığı mənzərə xeyli qeyri-adidir. Bu gənc kimdir ki, onunla beləcə isti görüşür? Adını da deyir, atasının da adını deyir. Amma, deyəsən, donmuş yaddaş hərəkət etmək istəmir. Və birdən sərt həqiqət onun yaddaşında tərs şillə kimi açılır:*

*Duruxub qaldım, -*
*bir az yer ayağımın altdan qaçdı,*
*bir az torpaq sürüşdü elə bil.*
*Əvvəl anşırammadım -*
*nə Sabir, nə Alpay,*
*Elə bil yaddaşım dolaşıq düşdü,*
*Elə bil uzaq əsrlərdə qalmışdın -*
*beynimin "daş yaddaşında"...*
*... Sonra qəfil boynuna sarıldım,*
*Köksümə sıxdım -*
*Oğul doğmalığıyla...*
*Yaradanımdan aman dilədim -*
*yerini dəyişən ruhuna,*
*önümdə ağac kimi bitən Alpayına...*
*dua elədim...*

*Göründüyü kimi, "tərs şillənin" təsir gücü zəlzələ yaradır, dostun ayağının altından yer qaçır, torpaq sürüşür... Bu mənəvi kataklizm yaddaşı qaytarır. Aradan zamanın bürküsünə bürünmüş, dumanlanmış örtüyünü kəsib götürür. Arada mənəvi nizm bərpa olunur. Özü də yarğanın qaşından sanki zaman çayının o tayına uzanmış körpüdən keçə bilir. Körpü həmişə müqəddəslik missiyası daşıyıb. Birliyi bərpa edib. Bu şeirdə körpü Alpaydı və o da elə Alpay körpüsündən keçib təzədən Sabir Adilə qovuşur. Sanki ona olub-keçənləri danışır:*

*... Üstündən xeyli vaxt adlayıb -*
*əlli beşdə göz yumdun dünyaya,*
*Yaşasaydın, indi altmışı adlamışdın...*
*Qoyub getdiyin dünyadı -*
*Xırda yerdəyişmələr var...*
*... Alpay evlənib,*
*bir oğul nəvən şam yandırır ruhuna,*
*Alpayın üzünə, boynuna*
*Yoxluğun yazılıb, Sabir Adil,*
*Bunu gözündən oxudum Alpayın.*

*Təəssüf qarışıq bir ovqatla çoxdan ayrıldığı dostunun ruhuna dedikləri onun canından, varlığından gələn hisslərdir, duyğulardır. Sanki üzü küləyə oxunan nəğmələrdir. Üzü küləyə də asanlıqla nəğmə oxumaq olmur. Amma hər halda burası da var ki, həmin həzin-həzin oxunan nəğmələr dostunun ruhuna çatdırır ki, həyat yenə davam edir və sən yenə təzədən bu dünyadasan. Özü də boyu boyundan uca, ayağı ayağından böyük Alpayınla bu dünyadasan. Üstəlik davamın da var, nəvən gəlib dünyaya. O da ruhuna şam yandırır"*. Mən bilərəkdən yüksək poetik həssaslıqla yazılmış bu parçaların arasına müdaxil etmədim. İstədim ki, oxucu özü tənqidçinin həssas yanaşmasını müşahidə edə bilsin. Müəllif həyati detallardan şairin necə ustalıqla istifadə etməsini görür və bu məqamları özü də maraqla mənalandıra bilir. Belə şeirləri və bu tipli şeirlərə həssas yanaşmanı oxuyanda adam həyatın davamlılığına daha dərindən inanır. Sanki bir daha anlayırsan; həyat ötəri deyil. İnsanların da yaxşı əməlləri unudulmur. Hər bir kəs öz övladında nə qədər təkrar olunursa, yaxşı əməllərin yaşarlılığı da eləcə təkrar olunur. Biz sənətin dəyərini həyatın yaşarlığını təbliğ etmə gücündə görə bilirik.

Əli Rza Xələflinin təsirli bir məqama - Avdı Qoşqarın özünün dostunun oğlu ilə görüşünə həsr etdiyi şeirini sanki özü yaşadığı hisslər kimi yazıya gətirir. Müəllif yazır: *"Şairin məqsədi burada genetik nəslin davamından danışmaq deyil. O, dostuna demək istəyir ki, sən getmisən, bir gün biz də gedərik. Amma həyat bizimlə qurtarmır, sənin sağlam düşüncələrini yaşadan, yaşada bilən insanlar var.*

*Şeirin əvvəlindən axırına qədər görünən tərəfdə - gözümüzün önündə dayanan şair Sabir Adilin oğlu Alpaydı. Alpayın istiqanlılığı, atasına insanların sevgisinin təsdiqini tapdığı Avdı Qoşqarı tanıması, bu görüşün yaratdığı ovqat, əhval və bütövlükdə bu ovqatın arxasında gördüyümüz, tanıdığımız sənətkarın özü var - Sabir Adil var. Şeir, deyəsən, məktub ovqatı ilə yazılıb. Və Sabir Adilin ruhuna ünvan tutulub. İki şəxsin arasında gənc Alpayın və Alpayın atasının dostunun arasında xatirələr çözülür. Sanki zaman çox sürətlə geriyə qayıdır, bu günə gəlir və üzü gələcəyə də can atır"*. Şeirdəki obrazlar - şair Sabir Adil, onun oğlu Alpay və eləcə də, lirik mən - Avdı Qoşqar çox həssaslıqla duyulur. Real insan mənzərələri gözlərimizin önündə canlanır. Və bizdə belə bir təəssürat yaranır ki, insan saflığı, insan saflığının təcəssümü olan sözün saflığı həyatın davamlılığını təmin edən iksirə çevrilir.

İnsanlığın meyarını, əlbəttə, yüksək humanizmlə insanlığa xidmət edən insanlığın meyarını qorumaq hər kəsin özünün təbii keyfiyyətləri ilə bağlıdır. Əgər birinin təbiəti mənən çürükdürsə, onu cəmiyyətin gözündən heç bir bəzək-düzək gizlədə bilməz. Çünki xalq arasında da deyildiyi kimi el gözü tərəzidir. İnsanlar yaxşını-pisi bütün dəqiqliyi ilə görə bilirlər. Hətta bunu çox vaxt açıq deməsələr belə, hər kəs dəqiqliklə müşahidə edir.

Əli Rza Xələfli maraqlı bir həyati detalla yazısını daha da şirinləşdirir: *"Arıçılar arasında belə bir deyim var: "Bal arıçının vicdanıdır". Yəqin ki, burada balın keyfiyyəti nəzərdə tutulur. Əgər arının gətirdiyi məhsula arıçı haram qatmasa, bal keyfiyyətcə yüksək olar. Və demək, bu yüksəklik ölçüsü həm də arıçının vicdan ölçüsüdür. Sənətdə də belədir, xüsusilə söz sənətində. Sənətkar nə qədər öz hisslərindəsəmimidirsə, sözü də bir o qədər saf, səmimi olacaq. Hər kəs onu özünün, ruhunun səsi kimi, sözü kimi qəbul edəcək"*. Həqiqətən, insan münasibətləri ilə səsləşən həyati müşahidədir. Bal saxtadırsa, burada arının heç bir günahı yoxdur. Müəllif də elə bu sərrastlığı diqqətə çəkməkdə haqlıdır. Bal arıdan çox, arıçının vicdanıdır.

Dəyərli sözü, insan ruhuna sirayət edən duyğuları bütün həssaslığı ilə sənətə gətirə bilən şairin sözünü dəyərləndirmək, onu uca tutmaq tənqidçidən, ədəbiyyatşünasdan vicdani meyarlara sədaqətli münasibət tələb edir.




"*Göy üzündə səs*" kitabını zənginləşdirən bir cəhəti də qeyd etmək istərdim. Bu kitabda müasirlərinin Avdı Qoşqar haqqında maraqlı qeydləri də yer alıb. Akademik Nizami Cəfərovun *"Yatağına sığmayan çay", professoer Mahmud Allahmanlının "Düşüncənin fəlsəfi məzmunu", filosof Sabir Bəşirovun "Dünyanın düzü, əyrisi", professor Rüstəm Kamalın "Ömür və söz sınağında", professor Vaqif Yusiflinin "Gəlmişdim dünyaya"*... kimi yazıları da dövrün ədəbi düşüncəsinə kifayət qədər işıq salır.

Əli Rza Xələfli qanadlı publisistikası, poetik ədəbi tənqidi ilənə qədər ciddiyyətlə məşğul olsa da, yeri gəldikcə sözünü poeziyanın ecazkar dili ilə də çatdırmaqdan çəkinmir. Kitabın sonunda Avdı Qoşqara həsr etdiyi şeirdən iki bəndlə mən də oxucularıma poetik ovqat bəxş etmək istədim:

Mən deyən yer deyil bu dünya axı,
*"Qaldır öz yanına, Tanrım"*, gələrəm.
Ordan yer üzünə boylanıb baxıb,
Burda gülməsəm də, orda gülərəm.

İlahi, saxladım dərdin tacını,
Can satıb, qəm alıb axça yığmışam.
Çəkib yer üzündən ağrı, acını,
Sənə gətirməyə boxça yığmışam.

Bu da "*Göy üzündə səs*"in şairi. Sözümün əzəli də, sonu da elə sözdür. Kim dəyərli söz yaradırsa, mən də onun sözünü söz etməyi özümə borc bilirəm.

**21.02.2022**